**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA TƏSƏRRÜFATIN ƏRAZİ TƏŞKİLİNDƏ "REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMLARI"NIN ROLU (QUBA-XAÇMAZ İQTİSADİ-COĞRAFİ RAYONUNUN TİMSALINDA)

İxtisas: 5401.01 – İqtisadi coğrafiya

Elm sahəsi: Coğrafiya

İddiaçı: **Elvira Həsən qızı Hüseynova**

Fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Coğrafiya" fakültəsinin "Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Saleh Qasım oğlu Nağıyev**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, professor
**Tapdıq Güləhməd oğlu Həsənov**

coğrafiya üzrə fəlsəfə doktoru
**Firuzə Mübariz qızı Cəfərova**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Etibar Sənan oğlu Bədəlov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AR Elm və Təhsil Nazirliyi BDU nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: coğrafiya elmləri doktoru, professor
**Çingiz Niyazi oğlu İsmayılov**

Dissertasiya şurasının elmi katibi: coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Sahilə Əbiş qızı Allahverdiyeva**

Elmi seminarın sədri: coğrafiya elmləri doktoru, dosent
**Aydın İsmayıl oğlu İbrahimov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"04" 11 2024

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Təsərrüfatın səmərəli ərazi təşkilinə nail olmaq üçün onun sahə və ərazi strukturunda mütənasibliyin qorunması, yerli təbii ehtiyatlar və təbii şəraitin imkanlarından istifadə edilməsi, əhalinin məskunlaşmasında şəhərlər və kəndlərin qarşılıqlı əlaqələrinin təmin edilməsi vacibdir. Bu zaman ölkənin sosial-iqtisadi və demoqrafik inkişafında regionların da rolu artır, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına şərait yaranır, əhaliyə göstərilən sosial-mədəni xidmətlər yüksəlir.

Lakin uzun illər ərzində Azərbaycanda aparılan regional siyasət nəticəsində onun paytaxtı və digər iqtisadi rayonların sosial-iqtisadi potensialı və inkişaf səviyyəsi arasında kəskin uyğunsuzluqlar əmələ gəlmişdir. Ölkənin təsərrüfat strukturunda neft-qaz hasilatı və emalı sənayesinin aparıcı mövqe tutması və onun müəssisələrinin əsasən Abşeronda cəmlənməsi nəticəsində belə vəziyyət yaranmışdır. Regionlarda isə təsərrüfatın sahə strukturunda kənd təsərrüfatı sahələri əsas yer tutmaqla yanaşı, onun məhsullarını emal edən, kiçik həcmli yüngül və yeyinti sənayesi obyektləri fəaliyyət göstərmişdir. Bu sahələrdə məhsul istehsalının kiçik həcmli olması mövcud tələbatın ödənilməsinə zəif təsir göstərmiş, iş yerləri ilə təminatda problemlər yaranmış, əhalinin gəlirləri aşağı səviyyədə olmuşdur. Belə vəziyyət miqrasiyaların davamlı olaraq getməsinə gətirib çıxarmış, şəhərlər və qəsəbələr onları qəbul edə bilmədiyinə görə xarici miqrasiyalar üstünlük təşkil etmişdir. Ona görə zəif sosial-iqtisadi baza demoqrafik potensialın da artmasına imkan verməmişdir.

XX əsrin sonundan başlayaraq keçid dövrünün çətinlikləri ölkənin regionlarında xeyli problemlərə səbəb olmuşdur. İlk növbədə iqtisadi əlaqələrin pozulması əksər sənaye obyektlərinin fəaliyyətinin dayanması, iş yerlərinin bağlanması ilə nəticələndi. Kənd təsərrüfatında dövlət və kollektiv təsərrüfatları ləğv edildi. Onların yerində yaranmış kiçik kəndli-fermer təsərrüfatları bu sahənin strukturunun əsaslı şəkildə dəyişməsinə səbəb oldu. Strateji məhsulların istehsalı tamamilə azaldı. Belə vəziyyət yüngül və

yeyinti sənayesi sahələrinə aid müəssisələrin dayanması ilə nəticələndi.

XX əsrin sonunda başlanan iqtisadi islahatlar az vaxtda öz nəticələrini verməyə başladı. Bunun üçün ilk növbədə qanunvericilik bazası yaradıldı. Regionların sosial-iqtisadi inkişafı, ayrı-ayrı təsərrüfat sahələrinin inkişafının təmin edilməsi və nizamlanması, bu işlərə dövlət dəstəyinin göstərilməsi məqsədi ilə Dövlət Proqramları qəbul edildi.

Bununla yanaşı, əvvəlki illərdə olduğu kimi neft-qaz sənayesinin üstün inkişafı, bu sahələrə iri həcmli yerli və xarici sərmayələrin yatırılması ölkədə təsərrüfatın sahə strukturunda və regionlar üzrə paylanmasında olan uyğunsuzluğu daha da gücləndirdi. Ona görə ölkədə aparılan iqtisadi islahatların elmi-nəzəri və praktiki əsaslarının işlənib hazırlanması, regionlarda təsərrüfatın səmərəli ərazi təşkili istiqamətində təkliflər vı tövsiyələrin hazırlanması, məskunlaşmanın nizamlanması istiqamətlərinin müəyyən edilməsi üçün davamlı olaraq tədqiqat işlərinin aparılması tələb olunur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın aparılmasında ***məqsəd*** iqtisadi rayonda müstəqillik illərində təsərrüfatın ərazi təşkili və əhalinin məskunlaşmasında yaranmış problemlərin, onların aradan qaldırılması yollarının müəyyən edilməsi, bunun üçün həyata keçirilməsi zəruri olan tədbirlərin işlənib hazırlanması, bu prosesdə Dövlət Proqramlarının rolunun öyrənilməsidir.

Bu məqsədlərə nail olmaq üçün aşağıdakı **vəzifələr** qarşıya qoyulmuşdur:

- Keçid dövrünün çətinliklərinin aradan qaldırılması, təsərrüfatın səmərəli ərazi təşkilinə nail olmaq üçün iqtisadi islahatların zəruriliyinin əsaslandırılması, həyata keçirilən tədbirlərin əsas istiamətlərinin müəyyənləşdirilməsi;
- Müstəqillik illərində iqtisadi rayonun təsərrüfatının sahə və ərazi strukturunda baş verən dəyişikliklərin öyrənilməsi, onların əsas nəticələrinin tədqiq olunması, regionun ölkənin sosial-iqtisadi inkişafında payının artırılması yollarının müəyyənləşdirilməsi;
- İqtisadi rayonun təsərrüfat sahələri və yaşayış məntəqələrinin inkişafı üçün təbii-coğrafi şərait və təbii ehtiyatlardan istifadə

edilməsi yollarının müəyyən edilməsi, sosial-iqtisadi və mədəni bazanın rolunun artırılması yollarının tədqiqi;

- Həyata keçirilən Dövlət Proqramlarının əsas nəticələrinin təhlil edilməsi, onların regionun sosial-iqtisadi inkişafında əhəmiyyətinin müəyyən edilməsi, mövcud problemlərin və çatışmazlıqların gələcək proqramlarda nəzərə alınmasının vacibliyinin göstərilməsi;
- Əhalinin məskunlaşması sistemində yaranmış dinamikanın əsas meyllərinin tədqiq edilməsi, şəhərlərin məskunlaşmada rolunun yüksəldilməsi yollarının işlənib hazırlanması;
- İqtisadi rayonun davamlı sosial-iqtisadi və demoqrafik inkişafına yönələn yaxın və orta perspektivli dövr üçün tədbirlərin həyata keçirilməsi üçün təkliflər və tövsiyələrin hazırlanması. Bu sahədə dövlətin maliyyə-texniki dəstəyinin əsas istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın metodları.** Dissertasiyadakı təhlillərdə statistika, müqayisəli təhlil, sistemli yanaşma, regional təhlil, tarixi-coğrafi yanaşma, modelləşdirmə, xəritələşdirmə, çöl tədqiqatları və s. üsullardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan müddəalar**:

1. Quba-Xaçmaz iqtisadi rayonunda təsərrüfatın səmərəli ərazi təşkilinə və əhalinin məskunlaşmasına təbii-coğrafi şərait və sosial-iqtisadi bazanın təsirinin, onlardan səmərəli istifadə yollarının müəyyən edilməsi.
2. Keçid dövrünün çətinliklərinin aradan qaldırılması üçün qəbul edilmiş Dövlət Proqramlarının yerinə yetirilməsi ilə əldə edilən əsas nəticələr, onların iqtiusadi rayonun sosial-iqtisadi və demoqrafik inkişafında əhəmiyyəti.
3. Əhaliyə göstərilən sosial-mədəni xidmətlərin yaxşılaşdırılması, iş yerləri ilə təminatın yüksəldilməsi istiqamətləri, bunun üçün həyata keçirilməsi zəruri olan tədbirlərin əsaslandırılması.
4. Regionun demoqrafik inkişafının müasir meyi lləri və məskunlaşmanın nizamlanmasının əsas yolları.
5. İqtisadi rayonun perspektiv inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi. Ölkənin sosial-iqtisadi inkişafında regionun

payının artırılması yolları, bu sahədə tədbirlərin həyata keçirilməsi prosesində yerli təbii-iqtisadi bazadan istifadə edilməsi yolları.

**Tədqiqatın elmi yeniliyi:**

- Müstəqillik illərində iqtisadi rayonda təsərrüfatın strukturunun təkmilləşdirilməsinin zəruriliyi göstərilmişdir. Ona görə ki, uzun illər ərzində formalaşmış şəhərlərin təsərrüfatın strukturu və kənd məntəqələrində əhalinin məşğulluğunun quruluşu regionun davamlı inkişafını təmin etmir.
- İqtisadi islahatların aparılması üçün qəbul edilmiş Dövlət Proqramlarında regionların yerli xüsusiyyətlərinin nəzərə alınması, konkret vəzifələrin yerinə yetirilməsinə maliyyə-texniki vəsaitlərin ayrılmasının vacibliyi müəyyən edilmişdir. Tədqiqat prosesində yerlərdə olan təbii-iqtisadi potensialdan istifadə edilməsi, onların əsasında sənaye, kənd təsərrüfatı və turizm-rekreasiya təsərrüfatının inkişafı yolları müəyyən edilmişdir.
- Müəyyən edilmişdir ki, iqtisadi rayonda şəhərlərin sosial-iqtisadi bazasının zəif olması, kənd təsərrüfatının müasir strukturu və əhalinin gəlirlərində bu sahənin payının aşağı olması miqrasiyalara şərait yaradan əsas amillərdir. Məskunlaşmanın inkişafında şəhərlərin rolunun yüksəldilməsi istiqamətləri təhlil edilmişdir.
- Sosial-mədəni xidmət obyektlərinin fəaliyyətinin təhlili əsasında müəyyən olunmuşdur ki, iqtisadi rayonda hər 10000 nəfərə görə tibbi xidmət göstəriciləri, hər nəfərə görə pullu xidmətlər, o cümlədən məişət xidmətləri Abşerondan bir neçə dəfə, ölkə üzrə orta göstəricilərdən xeyli aşağıdır. Dissertasiyada onların aradan qaldırılması yolları işlənib hazırlanmışdır.
- Müəyyən olunmuşdur ki, regionların inkişafı Dövlət Proqramlarının, sənaye, kənd təsərrüfatı, infrastruktur sahələrinin inkişafı üzrə tədbirlərin həyata keçirilməsi iqtisadi rayonun sosial-iqtisadi və demoqrafik inkişafına mühüm təsir göstərmişdir. Bu tədbirlər təhsil, səhiyyə, sosial-mədəni xidmət, turizm, nəqliyyat-kommunikasiya şəbəkəsinin yenidən qurulması istiqamətlərində dəyişikliklərin iqtisadi-coğrafi təhlili aparılmışdır.
- İlk dəfə olaraq regionun sosial-iqtisadi və demoqrafik inkişafın məlumat bazası hazırlanmışdır. Onların davamlı inkişafın

müasir vəziyyəti və gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün çox əhəmiyyətlidir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat zamanı əldə olunmuş nəticələr iqtisadi rayonun davamlı inkişafının təmin olunması istiqamətində tədbirlərin həyata keçirilməsi üçün istifadə oluna bilər. Aparılan təhlillərin nəticələri regionda sənaye, kənd təsərrüfatı və infrastruktur sahələrinin ərazi təşkili və yenidən qurulması üçün vacib mənbədir. Yerlərdə təsərrüfat sahələrinin inkişafı və əhali məskunlaşmasının nizamlanması üçün verilən təkliflər və tövsiyələr faydalıdır.

Dissertasiyada aparılan təhlillərin nəticələri ali və orta təhsil müəssisələrində aparılan tədris müəssisələrində istifadə üçün yararlıdır.

**Aprobasiya.** Dissertasiya işinin əsas məzmunu və əldə edilmiş nəticələrini əks etdirən müddəalar respublikada və xarici ölkələrdə keçirilən konfrans və seminarlarda məruzələr edilmişdir. Onlara aşağıdakılar aiddir:

- “Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemlər” mövzusunda elmi-praktiki konfrans (Bakı, 2016),
- “Əmək, məşğulluq və sosial müdafiənin aktual məsələləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransı (Bakı, 2017),
- Материалы международной научно-практической конференции “Модернизация естественнонаучного образования в условиях обновленного содержания (Алматы, 2017),
- Doktorantların və gənc tədqiqatçıların XXI respublika elmi konfransı (Bakı, 2017),
- Akad. H.Ə.Əliyevin 110 illiyinə həsr olunmuş “İnsan və ətraf mühit münasibətləri” mövzusunda elmi-praktiki konfransı (Bakı, 2017).
- Coğrafiyanın müasir problemləri, Elm və Təhsilin inteqrasiyası, beynəlxalq elmi-praktiki konfransı (Bakı, 2022)
- Ümummilli lider H.Əliyevin 100 illik yubileyinə həsr olunmuş Coğrafiyanın müaqsir problemləri, Elm və Təhsilin

inteqrasiyası, II beynəlxalq elmi-praktiki konfransı (Bakı, 2023)

Tədqiqat işinin mövzusuna dair 9 elmi məqalə və tezis çap edilmişdir.

**Tətbiqi.** Tədqiqatın nəticələri inzibati rayonlarda təsərrüfatın inkişafı, məskunlaşmanın idarə edilməsi işlərində, sosial-iqtisadi inkişafı müəyyən edən oxşar regionlarda əhalinin və təsərrüfatın öyrənilməsi işlərində istifadə edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Coğrafiya" fakültəsinin "Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi, quruluşu və əsas məzmunu.** Dissertasiya işi giriş - 6 səhifə, 4 fəsil, o cümlədən I fəsil – 25 səhifə, II fəsil – 26 səhifə, III fəsil - 50 səhifə, IV fəsil - 32 səhifə, nəticə - 2 səhifə, 151 adda istifadə olunmuş ədəbiyyat siyahısından, 14 cədvəl, 1 qrafik, 4 xəritə-sxemdən ibarətdir. Dissertasiya işi 153 kompüter səhifəsi həcmindədir, 239 535 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, tədqiqatın metodları, məqsəd və vəzifələri müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiə olunan müddəalar və praktiki əhəmiyyəti haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəslində "**Müstəqillik illərində həyata keçirilən iqtisadi islahatların rolu və təsərrüfatın öyrənilməsinin nəzəri-metodiki əsasları**" öyrənilir. Ölkədə təsərrüfatın səmərəli ərazi təşkilində iqitisadi islahatların aparılması xüsusi əhəmiyyət kəsb edir. Ölkənin regionlarında təsərrüfatın müasir strukturu onların sosial-iqtisadi və demoqrafik inkişafını tam olaraq təmin etmir. Uzun illər ərzində formalaşmış təsərrüfat obyektlərinin fəaliyyətini genişləndirmək, yeni obyektlər şəbəkəsi yaratmaq istiqamətində müəyyən problemlər vardır.

Quba-Xaçmaz iqtisadi rayonunda sənaye potensialı uzun illər ərzində yaradılmışdır. Regionun təbii şəraiti və təbii ehtiyatları, kənd təsərrüfatı məhsullarının emalı şəhərlərdə və əksər qəsəbələrdə xüsusi müəssisələrin yaradılmasına imkan versə də, onların istehsal

gücü kiçikdir, əhalinin məşğulluğunda əhəmiyyətli rol oynamır. Eyni zamanda emal müəssisələrinin aşağı səviyyədə fəaliyyəti becərilən məhsulların az bir hissəsini qəbul etmək imkanına malikdir.

Yaranmış vəziyyətdə Quba-Xaçmaz iqtisadi rayonunda sənaye məhsullarının istehsalında böyük uyğunsuzluq əmələ gəlir. Artıq uzun illərdir ki, belə vəziyyət davam edir. Ayrı-ayrı inzibati rayonlarda sənaye məhsullarının istehsalını bir, bəzən bir neçə iri həcmli sənaye obyektləri müəyyən edir. Ona görə inzibati rayonlarda yaradılmış təsərrüfat strukturunda ciddi disproporsiyalar əmələ gəlir.

Ölkədə həyata keçirilən iqtisadi islahatların nizamlanması, maliyyə əsaslarının müəyyən edilməsi, ***qanunvericilik bazasının*** yaradılması üçün XX əsrin 90-cı illərinin axırlarından başlayaraq Dövlət Proqramları qəbul edilmişdir. Onlar həyata keçirilən iqtisadi islahatlar çərçivəsində görülən işlərə maliyyə vəsaitləri ayrılması, təsərrüfatda struktur dəyişiklikləri aparılması üçün də baza rolunu oynayırdı.

Ölkədə həyata keçirilən iqtisadi islahatların hüquqi bazası əksər hallarda ümumi təsərrüfat sahələrini əhatə etsə də, regionların sosial-iqtisadi, mədəni və demoqrafik inkişafı üçün də böyük miqyaslı tədbirlər həyata keçirilmişdir.

Bu istiqamətdə tədbirlərin nizamlanması üçün qəbul edilən "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları"nın xüsusi rolu olmuşdur.

Birinci "Dövlət Proqramı" (2004-2008-ci illər) regionlarda sahibkarlığın inkişafına kömək göstərməklə yanaşı, onların fəaliyyəti üçün maliyyə mənbələri axtarmaq, təbii şərait və təbii ehtiyatlardan səmərəli istifadə etmək, məşğulluq səviyyəsini yüksəltmək və yoxsulluğun azaldılmasına kömək məqsədi daşıyırdı.

Təsərrüfatın neftdən asılılığının azaldılması, qeyri-neft sektoruna aid sahələrin inkişaf etdirilməsi, onların təsərrüfat strukturunda payının artırılması üçün tədbirlərin görülməsi xüsusi əhəmiyyət kəsb edirdi. Bu istiqamətdə olan vəzifələrin yerinə yetirilməsi üçün növbəti "Regionların sosial-iqtisadi iqtisadi inkişafı Dövlət Proqramı"nın qəbul edilməsinə ehtiyac yaranmışdır. Ona görə də 2009-2013-cü illərdə "Regionların sosial-iqtisadi iqtisadi inkişafı Dövlət Proqramı"nın ikinci mərhələsi yerinə yetirilmişdir.

“Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın qəbul edilməsində məqsəd sənaye obyektlərinin texniki-texnoloji cəhətdən yenidən qurulmasına, sahə və ərazi strukturunun təkmilləşdirilməsinə, dövlətin maliyyə-texniki yardımı göstərməsinə, qeyri-neft sektorunun inkişaf etdirilməsinə, regionlarda sənayenin inkişafında bu sahənin rolunun yüksəldilməsinə, elmtutumlu, az xammal və enerji sərf edən sahələrin inkişaf etdirilməsinə, yüksək ixtisaslı kadrlardan istifadə edilməsində şərait yaradılması və sairdir.

Əhalinin sayının davamlı olaraq artması ərzaq məhsullarına olan tələbatı da artırır. Lakin kənd təsərrüfatı məhsullarının istehsalında olan müasir vəziyyət bu sahədə qarşıda duran vəzifələrin həllinə tam olaraq imkan vermir. Ona görə bu sahədə vəzifələrin həll edilməsi üçün 2008-ci ilin avqustunda “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları etibarlı təminatına dair Dövlət Proqramı” qəbul edilmişdir.

Azərbaycanda sosial-iqtisadi və mədəni inkişafın əsas istiqamətlərinin müəyyən edilməsi, qeyri-neft sektorunun inkişafı, əhalinin iş yerləri ilə təminatı və həyat səviyyəsinin yüksəldilməsi üçün yeni qanunvericilik aktlarının qəbul edilməsi zərurəti yaranmışdır. Burada ölkənin yaxın illər üçün perspektiv inkişafının prioritetlərinin müəyyən edilməsi əsas məqsədlər kimi qarşıda durur. Bu vəzifələr 2012-ci ildə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasında müəyyən edilmişdir.

Azərbaycanda gələcək inkişaf istiqamətlərini yeni qəbul edilmiş Strateji Yol Xəritələri müəyyən edir. Strateji Yol Xəritəsində kənd təsərrüfatı, turizm, ağır sənaye və maşınqayırma, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, kommunal təsərrüfatın inkişafı üzrə Dövlət Proqramlarının əhəmiyyəti böyükdür.

Ölkədə iqtisadi islahatların aparılması ilə eyni vaxtda demoqrafik vəziyyətin nizamlanması sahəsində də tədbirlər görülməsi zərurəti yaranmışdır. 9 dekabr 1999-cu ildə “Azərbaycan Respublikasında Demoqrafik İnkişaf Konsepsiyası” qəbul edilmişdir. Konsepsiyada qeyd edilir ki, demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl həyata keçməsinin təmin olunmasına yönəldilmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarətdir.

Demoqrafik proseslər ölkənin sosial-iqtisadi və mədəni inkişafının tərkib hissəsidir. Azərbaycanda demoqrafik siyasətin həyata keçirilməsi üçün qəbul edilmiş əsas kimi "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" qəbul edilmişdir. 2004-cü ilin noyabrında qəbul edilmiş Dövlət Proqramı doğum və miqrasiyanı tənzimləməklə əhalinin sayının artımını, yaş-cins tərkibinin optimal səviyyədə saxlanılmasını təmin etməli, onların ölkənin sosial-iqtisadi inkişaf maraqlarına uyğunluğuna şərait yaratmalı, əhalinin ölkədə regionlar üzrə tarazlı məskunlaşmasına şərait yaratmağa xidmət etməlidir.

"Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı" (2007-2010) 2007-ci ilin mayında qəbul edilmişdir. Bu proqramda əhalinin iş yerləri ilə təminatı və səmərəli məşğulluğun təşkili üçün qeyri-neft sektorunun inkişafı, kiçik və orta sahibkarlığın inkişafına şərait yaradılması, beynəlxalq əmək bölgüsündə daha fəal iştirak etmək üçün tədbirlər görülməsi, yerlərdə olan təbii şərait və təbii ehtiyatlardan istifadə edilməsi əsasında yeni təsərrüfat obyektlərinin yaradılması vacib vəzifələr kimi qarşıda durmuşdur.

Məlumdur ki, miqrasiyalar müxtəlif sosial-iqtisadi, ictimai-siyasi və demoqrafik səbəblərdən ola bilər. Ölkədə keçid dövrünün çətinlikləri ilə əlaqədar həyat səviyyəsinin aşağı düşməsi, iş yerləri ilə təminatda olan problemlər ölkə daxili və xarici miqrasiyaların intensiv xarakterli olmasına gətirib çıxarmışdır. Bu səbəbdən, 2006-cı ilin avqust ayında "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı" (2006-2008) qəbul edilmişdir.

Ölkə iqtisadiyyatında təsərrüfatın və əhalinin öyrənilməsinin əhəmiyyətini nəzərə alaraq bu istiqamətdə də genişmiqyaslı tədqiqatlar aparılmışdır. Azərbaycanda təsərrüfatın və əhalinin öyrənilməsinin nəzəri-metodiki əsasları məsələləri XIX əvvəllərindən başlayaraq öyrənilmişdir. XIX-XX əsrlərdə Azərbaycanda əhali və təsərrüfatın öyrənilməsi sahəsində böyük işlər görülmüşdür. İlkin mərhələdə regionun təbii şəraiti və təbii ehtiyatlarının öyrənilməsi sahəsində işlər başlansa da, XX əsrdə geniş miqyaslı tədqiqatlar aparılmışdır. XX əsrin ilk illərindən başlayaraq Azərbaycanın təbii şəraiti, təbii ehtiyatları, əhalisi və təsərrüfatının ərazi təşkilinin əsas

prinsipləri öyrənilmişdir. Bu sahədə respublika üzrə təhlillərdə ümumi xarakterli məsələlərlə yanaşı, regional aspektlərdə də tədqiqatlar aparılmışdır.

M.Baharlının "Azərbaycan" kitabında ölkə əhalisi və təsərrüfatı haqqında geniş məlumatlar öz əksini tapmışdır. Bundan başqa, ölkə respublikanın əhalisinin və təsərrüfatının öyrənilmsəi baxımdan Ş.Y.Göyçaylı, Ə.M.Hacızadə, E.Q.Mehrəliyev, N.A.Babaxanov, A.A.Nadirovun, N.N.Allahverdiyevin, M.M.Allahverdiyev, S.K.Hüseynov, V.Ə.Əfəndiyevin, Ş.Q.Dəmirqayayevin tədqiqatları xüsusi əhəmiyyətə malikdir.

Müstəqillik qazandıqdan sonra isə ölkənin, o cümlədən onun ayrı-ayrı regionlarında təsərrüfatın ərazi təşkili və əhali məsələləri ilə bağlı T.G.Həsənov, N.H.Əyyubov, Z.N.Eminov, Z.T.İmrani, N.Ə.Paşayev, V.N.Cavadov tərəfindən tədqiqat işləri yerinə yetirilmişdir[1].

Dissertasiyanın ikinci fəsli **"Quba-Xaçmaz iqtisadi rayonunda təsərrüfatın və əhalinin ərazi təşkilinin təbii-iqtisadi bazası"**na həsr olunmuşdur. Yaşayış məntəqələrinin salınması, kənd təsərrüfatı işlərinin aparılması, geniş əraziləri əhatə edən təsərrüfat obyektlərinin yaradılması və fəaliyyəti üçün ərazinin ***relyef*** şəraiti nəzərə alınır.

Quba-Xaçmaz iqtisadi rayonunda Xəzər dənizinin sahillərindən Baş Qafqaz silsiləsinin suayırıcısına qədər əraziləri tutur. Bu istiqamətdə mütləq hündürlük dənizin səviyyəsi olan -26 m-dən 4466 m-ə qədər dəyişir. Göstərilən ərazilərdə olan əsas oroqrafik vahidlərə Samur-Dəvəçi ovalığı, Qusar maili düzənliyi, Baş Qafqaz və Yan silsilələr ayrılır. Baş Qafqaz silsiləsindən çoxlu sayda qollar ayrılır və burada 3000-4000 m-dən yüksəyə qalxan zirvələr ucalır[2].

Yüksək dağlıq ərazilərdə məskunlaşma üçün çox əlverişsiz ərazilər olsa da, Quba və Qusar inzibati rayonlarında bu sahələrdə kənd məntəqələri yerləşir. Bu ərazilərdə mütləq hündürlük 2000 m-dən yuxarıdır, ayrı-ayrı ərazilərdə 2500 m-ə çatır.

---

[1] Coğrafiya İnstitutu – 70. Bakı, 2015. 356 s.

[2] Müseyibov, M.A. Azərbaycanın fiziki coğrafiyası / M.A.Müseyibov. - Bakı: Maarif, - 1998. - 400 s.

Dağlıq ərazilərdən fərqli olaraq əhali əsasən düzənlik sahələrdə, dənizlərin, çayların sahillərində, dağətəyi zonalarda, dağlar arası çökəkliklərdə yerləşir. Kənd təsərrüfatı işlərinin aparılması üçün əlverişli sahələr də əsasən burada cəmlənir.

Lakin tədqiqat rayonunda dağlıq və dağətəyi zonaların üstünlük təşkil etdiyini nəzərə alaraq əhalinin böyük əksəriyyəti də məhz bu ərazilərdə cəmlənir.

***Təbii ehtiyatlar*** əhalinin yerləşməsi və təsərrüfat sahələrinin ərazi təşkilinə əhəmiyyətli dərəcədə təsir göstərir. Onların sənaye cəhətdən səmərəli olanları ayrı-ayrı təsərrüfat sahələrinin yaradılmasında təbii-iqtisadi baza rolunu oynayır.

Quba-Xaçmaz iqtisadi rayonu faydalı qazıntılarla zəngin ərazilərə aid edilməsə də, yerli əhəmiyyəti olan ehtiyatlar kifayət qədərdir. Onlar arasında neft, təbii qaz, qum-çınqıl ehtiyatları daha böyük təsərrüfat əhəmiyyətinə malikdir.

Gələcəkdə Mezozoy yaşlı süxurlarda toplanmış neft-qaz ehtiyatlarının mənimsənilməsi potensialı daha böyükdür. Regionda neft yataqları geniş ərazilərdə toplanır, yataqlar bir-birindən çox aralı yerləşir. Belə vəziyyət hasilat aparılması üçün infrastruktur şəbəkəsi təşkilində xeyli çətinliklər yaradır. Ona görə neft və təbii qazın hasilatında daha mütərəqqi üsullar və texnologiyanın tətbiq edilməsi tələb olunur.

Bölgə ölkənin mineral bulaqlarla zəngin olan ərazilərindən biridir. Burada mineral bulaqlar soyuq və isti mənbələrdən yer səthinə çıxır. Xaltan, Xaşı və Cimi isti mineral bulaqlardır, suların tərkibində kükürd zəngindir. Suların temperaturu 60°C-dən yuxarıdır. Xaltan suyunun tərkibində hidrogen-sulfid qarışığı vardır.

Ölkənin şimalında yerləşən Quba-Xaçmaz iqtisadi rayonunda *iqlim şəraiti və aqroiqlim ehtiyatları* ərazilərin mənimsənilməsi və təsərrüfat işləri aparılması üçün əlverişlidir.

İqtisadi rayonda iqlim şəraitini müəyyən edən ən mühüm göstəricilərdən biri *günəş radiasiyası və günəşli saatların miqdarıdır*.

Bu amil istiliksevən bitkilərin əkin sahələrinin müəyyən edilməsi, bir çox sahələrdə də işlərin davam etmə vaxtının müəyyən edilməsi üçün əhəmiyyətlidir.

Günəş radiasiyasının yüksək kəmiyyətləri mühüm alternativ enerji mənbələrindən biridir. Ona görə HelioES qurulması və elektrik enerjisi istehsalında bu ehtiyatlar həlledici rola malikdir. Artıq regionda bu istiqamətdə tədbirlər həyata keçirilir və elektrik enerjisi istehsalı üçün qurğular qurulmuşdur.

*Havanın temperaturu* əsas iqlim göstəricilərindən biri olmaqla yanaşı, digər göstəricilərin də formalaşmasına təsir göstərir. Temperaturun ayrı-ayrı göstəricilərinin dəyişməsi ilin fəsilləri, mütləq hündürlüyün artmasından asılıdır.

Bitkiçilik sahələrinin inkişafı, ərazi təşkili ilk növbədə termik rejimdən asılıdır. Yüksək termik rejim istiliksevən üzüm, taxıl bitkiləri, bostan-tərəvəz bitkilərinin becərilməsi üçün vacib göstəricilərdən biridir.

Bununla yanaşı, aşağı temperatur şəraitində qış turizmi mərkəzlərinin yaradılması üçün əlverişli şərait vardır. Yüksək dağlıq ərazilərdə zirvələrə yaxın sahələrdə qış turizm bazaları təşkil olunur. Regionda artıq Şahdağ zirvəsinə yaxın belə mərkəz fəaliyyət göstərir.

*Atmosfer yağıntıları* ən mühüm iqlim göstəricilərindən biridir. İlin isti dövründə yağıntıların olması kənd təsərrüfatı işlərinin aparılması üçün xüsusi əhəmiyyət kəsb edir. Bu dövrdə yağıntıların olması suvarmaya olan ehtiyacı azaldır və əlavə tədbirlər görülməsinə çox da ehtiyac olmur.

Qar örtüyü ərazilərin rütubətlənmə dərəcəsini, çayların qidalanmasını və gursululuq dövrünü, dağlarda buzlaqların yaranmasını, bitkilərin qışlama keçirməsini, torpaqda rütubət ehtiyatı toplanmasını müəyyən edən amillərdir.

*Torpaq örtüyünün* əmələ gəlməsinə ərazinin relyefi, onun mütləq hündürlüyünün dəyişməsi, atmosfer yağıntılarının paylanması və temperaturun dəyişməsi, onlardan asılı olaraq dəyişən bitki örtüyü təsir edir.

Cənuba doğru quraq iqlim şəraitində boz, boz-çəmən, daha aşağı sahələrdə boz-qonur torpaqlar əmələ gəlir. Kiçik ərazilərdə şabalıdı və çəmən-şabalıdı torpaqlara rast gəlinir. Sahilboyu ərazilərdə qumluqlar ensiz zolaq şəklində yayılır.

Ovalıqda yaranan torpaqlarda suvarma şəraitində tərəvəz, meyvələr, üzüm becərilir. Məhsuldarlığın artırılması üçün

meliorasiya tədbirləri görülməsi tələb olunur. Bu zaman yeraltı suların səviyyəsinin aşağı salınması, mineral gübrələrdən istifadə edilməsi vacibdir.

Alçaq dağlıqdan orta dağlığa doğru yuxarı qalxdıqca qəhvəyi dağ-meşə torpaqları yaranır. Onların üzərində seyrək arid meşələr əmələ gəlir. Çox yerdə meşələr qırılmış və mənimsənilmişdir. Bu ərazilərdə tərəvəzçilik, meyvəçilik sahələri inkişaf edir, dənli bitkilər, üzüm əkilir, əhali heyvandarlıqla məşğul olur.

Dağlarda mütləq hündürlük artdıqca temperaturun azalması bitki örtüyünün seyrəlməsinə, torpaq örtüyünün dəyişməsinə səbəb olur.

Torpaqlar üzərində *bitki örtüyü* zəifdir, yay otlaqları və biçənəklər kimi əhəmiyyəti böyükdür. Ona görə heyvandarlıq inkişaf edir. Onlarda otarılmaya nəzarətin gücləndirilməsi vacibdir.

Dissertasiyanın üçüncü fəsli **"İqtisadi rayonda təsərrüfatın ərazi təşkili və məskunlşmanın müasir vəziyyəti"**ndən bəhs edir. Təsərrüfatın aparıcı sahəsi olan ***sənaye*** digər sahələrin, xüsusilə nəqliyyatın, kənd təsərrüfatının inkişafına, onun ərazi üzrə paylanmasına, strukturunun formalaşmasına əhəmiyyətli təsir göstərir.

Quba-Xaçmaz iqtisadi rayonunun sənaye sahələrində meyvə-tərəvəz konservləri, ət emalı məhsulları istehsal olunur, neft, təbii qaz, mineral-tikinti xammalları hasil olunur. Son illərdə regionda bir neçə Modul İES-lər tikilmişdir (Şəkil 1).

Bununla yanaşı, iqtisadi rayonda ölkənin ümumi sənaye məhsullarının yalnız 0,7%-i istehsal olunur və bu sahə monostruktur xarakter daşıyır (2020-ci il). Ona görə bura daxil olan sahələrin, xüsusilə yeyinti və tikinti materialları sənayesinin inkişafı üçün əlavə tədbirlərin görülməsi vacibdir.

Regionda sənayenin inkişafının əlverişli təbii-coğrafi və iqtisadi bazası vardır. İqtisadi rayon ərazisində 91 sənaye müəssisəsi fəaliyyət göstərir. Onların sayı davamlı olaraq artır.

Quba-Xaçmaz iqtisadi rayonunda sənayenin *əsas sahələrinə* yanacaq-energetika, meyvə-tərəvəz konservi, içki, tikinti materialları istehsalı daxildir. Elektroenergitika iqtisadi rayonda yeni yaradılan sahələrə aiddir. Regionun əhalisi və təsərrüfatının elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması üçün Xaçmaz və Quba rayonlarında Modul İES tikilmişdir.

Emal sənayesi iqtisadi rayonun təsərrüfat strukturunda əhəmiyyətli yer tutur. Emal sənayesinin tərkibində qida məhsulları istehsalı mühüm yer tutur və 23,8% paya malikdir. Bu sahədə Xaçmaz və Şabran rayonlarında da yüksək paya malikdir.

İqtisadi rayonda son vaxtlarda istehsal edilən məhsullar arasında tikinti sənayesi ilə əlaqəli olan sahələr fərqlənir. Tikinti materialları sənayesi 0,9%, plastik qapı-pəncərə istehsalı 1,2%, meşə və ağac emalı sahələri (taxta qapı-pəncərə) 0,1% paya malikdir.




Şəkil. Quba-Xaçmaz iqtisadi rayonunda sənayenin strukturu (%-lə)

***Kənd təsərrüfatı*** sahələrində əhalini ərzaq məhsulları ilə təmin etməklə yanaşı, sənayenin bir çox sahələrini, əsasən də yüngül və

yeyinti sənayesi üçün də xammallar istehsal edilir. Bu sahə kənd əhalisinin məşğulluğunda əhəmiyyətli yer tutur, yerli təbii ehtiyatlar və təbii şəraitin imkanlarından istifadəni təmin edir.

İqtisadi rayonunda əkinlərin sahə strukturunda ***dənli və dənli-paxlalı bitkilər*** aparıcı yer tutur. Əkilən sahələrin böyüklüyünə görə iqtisadi rayonda ikinci yeri ***kartof, tərəvəz*** və ***bostan*** bitkiləri tutur. ***Meyvəçilik*** və ***tərəvəzçilik*** iqtisadi rayonun ixtisaslaşma sahəsidir.

İqtisadi rayonda digər bitkiçilik sahələri üzrə əkin yerləri azdır. Bu sahə ilk növbədə ***texniki bitkilərin*** becərilməsinə aiddir. İqtisadi rayon üzrə cəmi 297 ha sahədə texniki bitkilər becərilir.

Ölkənin bütün regionlarında olduğu kimi Quba-Xaçmaz iqtisadi rayonunda ***heyvandarlıq*** sahələrinin inkişaf etdirilməsi zəruridir.

Maldarlıq təsərrüfatlarının strukturunda ***camışçılıq*** xüsusi əhəmiyyət kəsb edir. Camışçılığın inkişafı üçün şərait çətinləşdiyinə görə bu sahədə ciddi tənəzzül müşahidə edilir.

***Qoyunçuluq*** **-** heyvandarlığın xüsusi sahəsidir və mühüm tərkib hissəsidir. Quba-Xaçmaz iqtisadi rayonunda dağlıq və düzənlik ərazilərin yanaşı yerləşməsi, Böyük Qafqazda yay otlarının, Xəzər sahili ərazilərdə qış otlaqların geniş sahə tutması, əhalinin uzun tarixi dövrlər ərazidə olan əmək təcrübəsi qoyunçuluğun inkişafına şərait yaradan amillərdir.

***Quşçuluq*** **-** şəhər əhalisinin ətə və yumurtaya olan tələbatını ödəyir. Quba-Xaçmaz iqtisadi rayonunda quşçuluq sahəsində müəyyən geriləmələr gedir və saxlanan quşların baş sayı azalır.

Əhalinin ərzaq məhsulları ilə təmin edilməsində və ərzaq təhlükəsizliyi şəraitinin təşkilində *heyvandarlıq məhsullarının* istehsalı mühüm rol oynayır. Əhalinin sayının artması, yeni yeyinti sənayesi obyektlərinin yaradılması bu məhsullara olan tələbatı daim yüksəldir.

***Xidmət sahələri*** əhalinin məskunlaşması, onlara sosial-mədəni və məişət xidməti göstərilməsi, həyat səviyyəsinin yüksəldilməsi ilə yanaşı, demoqrafik inkişafın nizamlanması üçün də mühüm əhəmiyyət kəsb edir.

Məskunlaşmanın müasir vəziyyəti sosial-mədəni bazasının tərkib hissəsi olan mənzil-kommunal təsərrüfatının fəaliyyəti, mənzillərlə təminat və yenilərinin tikilməsindən asılıdır.

Respublika üzrə olan 168,9 mln. $m^2$ ümumi mənzil fondunun 6,2%-i iqtisadi rayonun payına düşür. Dövlət tərəfindən mənzil tikintisi zəif templə aparılır, onun təminatı yox dərəcəsindədir.

***Təhsil*** gənc nəslin yetişməsi, təlimi və tərbiyəsi, ixtisaslı kadrların hazırlanmasında əhəmiyyətli yer tutur. İnzibati rayonlarda da məktəbəqədər təhsil müəssisələrinin sayı mövcud tələbatdan çox geri qalır. Vaxt keçdikcə uşaq bağçaları ilə təminat, bu sahədə fəaliyyət göstərən müəssisələr və onlarda tərbiyə alan uşaqların sayı getdikcə azalır. Son vaxtlarda regionlarda çoxlu sayda yeni məktəblər tikilməsinə baxmayaraq orta ümumtəhsil məktəblərinin sayı azalmağa doğru gedir.

***Səhiyyə*** sahəsində maliyyə vəsaitlərinin az olması ilə əlaqədar kəndlərdə fəaliyyət göstərən ambulator-poliklinika müəssisələri bağlanır, birləşdirilir, nəticədə səhiyyə obyektlərinin sayı, onlarda yerləşən çarpayıların sayı vaxt keçdikcə azalmaqdadır. Həkimlərin sosial müdafiəsinə ayrılan vəsaitlər azdır, məvacibləri aşağıdır. Ona görə ayrı-ayrı ixtisaslar üzrə həkimlərlə təminatda problemlər vardır. Regionlarda ixtisaslaşmış xəstəxanaların sayı azdır, əhali müalicə üçün paytaxta getməli olur.

Quba-Xaçmaz iqtisadi rayonunda ***əhalinin sayı*** nisbətən az, urbanizasiya səviyyəsi aşağı olan iqtisadi rayonlardan biridir. 2022-ci ilin əvvəlində iqtisadi rayonda 561,8 min nəfər əhali yaşamış, onun da 184,8 min nəfəri və ya 32,9%-i şəhərlərdə, 377,0 min nəfəri və ya 67,1%-i kəndlərdə məskunlaşmışdır[3]. Onlar müvafiq olaraq ölkənin şəhər əhalisinin 3,4%-ni, kənd əhalisinin 7,9%-ni təşkil edir . İqtisadi rayonda əhalinin sayı zəif templə artır. Ona görə də ölkə əhalisinin arasında regionun payı getdikcə azalır (Cədvəl). Keçən on il ərzində iqtisadi rayonda yeni qəsəbələrin yaradılması şəhər əhalisinin payının artmasına, onların ölkə əhalisi arasında xüsusi çəkisinin yüksəlməsinə imkan vermişdir.

Quba-Xaçmaz iqtisadi rayonunda demoqrafik vəziyyətin təhlili göstərir ki, uzun illər ərzində regionda kənd əhalisinin üstünlük təşkil etməsi, urbanizasiya səviyyəsinin aşağı olması əhalinin təbii artım hesabına çoxalmasına imkan vermişdir. Lakin iş yerləri ilə təminatda

---

[3] Azərbaycanın əhalisi 2021. Bakı, DSK, 2022. 138 s.

**Cədvəl**

## İqtisadi rayonda əhalinin sayı (min nəfər) və artımı (%)

| İnzibati rayonlar | İllər | | | | | | Artım tempi, % | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1979 | 1989 | 1999 | 2009 | 2019 | 2022 | 1979-89 | 1989-1999 | 1999-2009 | 2009-2019 | 2019-2022 |
| Xaçmaz | 105,3 | 115,9 | 144,4 | 159,2 | 178,1 | 182,2 | 110,1 | 124,6 | 110,2 | 111,9 | 102,3 |
| Quba | 108,0 | 114,9 | 136,9 | 152,5 | 171,7 | 175,8 | 106,4 | 119,1 | 111,4 | 112,6 | 102,4 |
| Qusar | 67,5 | 67,0 | 80,8 | 87,9 | 98,1 | 100,2 | 99,3 | 120,6 | 108,8 | 111,6 | 102,1 |
| Siyəzən | - | 28,7 | 33,5 | 37,7 | 42,2 | 43,1 | - | - | 112,5 | 111,9 | 102,1 |
| Şabran | 58,8 | 38,9 | 46,0 | 51,5 | 59,3 | 60,5 | 113,9 | 119,8 | 112,0 | 115,1 | 102,0 |
| İqtisadi rayon | 339,6 | 364,9 | 441,6 | 488,8 | 549,4 | 561,8 | 109,1 | 131,4 | 110,7 | 112,4 | 102,3 |
| Ölkə | 6026,5 | 7021,2 | 7953,4 | 8922,4 | 9981,5 | 10156,4 | 116,5 | 113,3 | 112,2 | 111,9 | 101,8 |

Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri – 2015, Bakı: 2016, 471 s.; Azərbaycan əhalisi – 2018, Bakı: 2019, 134 s.; Azərbaycan əhalisi-2021, Bakı: 2022, 138 s.

olan problemlər, keçid dövrünün çətinlikləri ilə əlaqədar miqrasiya olmuşdur, regionun iqtisadi potensialı demoqrafik inkişafı tam olaraq nizamlamağa imkan vermir.

Regionda əhalinin öyrənilməsi zamanı nəzərə alınması vacib olan amillərdən biri də əhalinin ***məşğulluq strukturudur***. Quba-Xaçmaz iqtisadi rayonunda xidmət sahələri əhalinin məşğulluğunda əhəmiyyətli yer tutur. Bura daxil olan təhsil, səhiyyə, ticarət müəssisələrində çalışanların sayı daha çoxdur.

Dissertasiyanın dördüncü fəsli **"İqtisadi rayonun inkişafının proritet istiqamətləri və dövlət proqramlarının təsiri"**nə həsr olunmuşdur.

Regionların sosial-iqtisadi və demoqrafik inkişaf istiqamətlərinin müəyyən edilməsi prosesində ilk növbədə təsərrüfatın ayrı-ayrı sahələri arasında uyğunsuzluğun aradan qaldırılması və istehsal edilən məhsulların, göstərilən xidmətlərin həcminin yüksəldilməsinin təmin edilməsi vacib vəzifələrdir.

Belə regionlar arasında Quba-Xaçmaz iqtisadi rayonu da vardır. İqtisadi rayonda təsərrüfat sahələrinin ərazi təşkilində, onların sahə nisbətində ciddi uyğunsuzluqlar vardır.

Ölkənin sənaye məhsullarının həcmində regionun payı (0,4%) uzun illərdir ki, sabit olaraq qalır. Bu isə onu göstərir ki, Quba-Xaçmaz iqtisadi rayonunda sənaye məhsulları istehsalının artırılması və regionun ölkənin sənaye potensialında payının yüksəldilməsi üçün daha ciddi tədbirlərin görülməsi tələb olunur.

İqtisadi rayonda sənayenin strukturunu fəaliyyət göstərən bir neçə obyekt müəyyən edir. Son vaxtlarda Xaçmaz və Qubada tikilən Modul İES-lər sənaye məhsulları istehsalının yarısını verir. Bu sahələrin payının artırılması əhalinin məşğulluğunun yüksəldilməsi, gəlirlərinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi üçün çox əhəmiyyətlidir.

İqtisadi rayonda həlli vacib olan, sosial-iqtisadi və demoqrafik inkişafda əhəmiyyətli təsirə malik vəzifələrdən biri də əhalinin iş yerləri ilə təmin edilməsidir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının birinci və ikinci mərhələlərində Quba-Xaçmaz iqtisadi rayonunda xeyli sayda iş yerləri açılmışdır. Onun

2004-2008-ci illəri əhatə edən birinci mərhələsində iqtisadi rayonda 24,0 min daimi iş yeri açılmışdır.

***"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"***nın ikinci mərhələsinin yerinə yetirilməsi prosesində də regionda yeni iş yerlərinin yaradılmasında xeyli uyğunsuzluq olmuşdur. Bu dövrdə iqtisadi rayon üzrə yaradılan 14,1 min yeni iş yeri ölkə üzrə 3,9% paya malikdir. Onların 11,2 mini (79,6%) fiziki şəxslər tərəfindən açılmışdır. Ona görə ayrı-ayrı sahələrdə 5 illik dövr ərzində bir neçə yüz yeni iş yeri açılmışdır.

İqtisadi rayonda əhaliyə göstərilən xidmətlərin yüksəldiməsi vacib vəzifələrə aiddir. Bu sahə əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə yanaşı, yaşayış keyfiyyətinin də yüksəlməsinə, gəlirlərin artmasına imkan verir. Lakin əhaliyə göstərilən pullu xidmətlərin, onlar arasında mühüm yer tutan məişət xidmətinin strukturunda regionların payı xeyli aşağıdır və onların əsas hissəsi Bakı şəhərinin payına düşür.

Regionların sosial-iqtisadi inkişafının nizamlanması zamanı səhiyyə obyektlərinin yenidən qurulması və əhaliyə göstərilən tibbi xidmətlərin yüksəldilməsi vacib vəzifələr sırasındadır.

Aparılan təhlillərdən göründüyü kimi iqtisadi rayonda yerləşən tibb müəssisələri və onlarda olan çarpayılar üzrə göstəricilər çox aşağıdır, kadrlarla təminat xeyli geri qalır. Həkimlər və orta tibb işçilərinin sosial müdafiəsinin zəif təşkil edilməsi, müvaciblərin aşağı olması onların regionlarda işləməsində çətinliklər yaradır. Burada həkim kadrlarla təminatın yüksəldilməsi üçün xüsusi güzəştlərin tətbiq edilməsi lazımdır. Eyni zamanda regionlar üzrə ixtisaslaşmış xəstəxanaların yaradılması, onların maddi-texniki bazasının yenidən qurulması vacibdir.

Quba-Xaçmaz iqtisadi rayonunda təhsil sahəsində islahatlar çərçivəsində uşaq tərbiyə müəssisələrinin yaradılması vacibdir. Hələlik ölkədə uşaqların bu tipli müəssisələrlə təminatı səviyyəsi aşağıdır. Ölkədə onun kəmiyyəti 14%, o cümlədən kəndlərdə 6,8%-dir. Ona görə regionlarda bu sahədə xüsusi müəssisələrin yaradılmasına diqqət artırılmalıdır.

Regionlarda uşaq tərbiyə müəssisələrinin yaradılmasında dövlət vəsaitləri ilə yanaşı, şəxsi sahibkarlıq subyektlərinin də iştirakının

təmin edilməsi lazım gəlir. Kənd məntəqələrində bu tipli müəssisələrin təşkili uşaqların sağlamlığının qorunmasına, əhatə olunma səviyyəsinin yüksəldilməsinə imkan verər.

Buna nail olmaq üçün müstəqilliyin ilk illərindən başlayaraq iqtisadi islahatlar çərçivəsində ***“Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları”*** xüsusi əhəmiyyət kəsb edir. Üç mərhələdən ibarət olan Dövlət Proqramlarının yerinə yetirilmə müddətləri artıq başa çatmışdır (2004-2008, 2009-2013 və 2014-2018).

2004-2008-ci illəri əhatə edən birinci “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın yerinə yetirilməsi dövründə olan 714 tədbirin 668-i regionların, o cümlədən 81-i Quba-Xaçmaz iqtisadi rayonunun payına düşmüşdür.

Birinci Dövlət Proqramının həyata keçirildiyi dövrdə sənaye, kənd təsərrüfatı, nəqliyyat və sosial-mədəni xidmət sahələrində, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm nəticələr əldə edilmişdir. Bu dövrdə ölkənin şimal sərhədlərində yerləşən Quba-Xaçmaz iqtisadi rayonunda da iqtisadi, sosial-mədəni xidmətlərin təşkili, demoqrafik inkişafa əhəmiyyətli təsir göstərən tədbirlər həyata keçirilmişdir.

Regionlarda ***yol-nəqliyyat infrastrukturunun*** yenidən qurulması vacib vəzifədir və bu sahədə xeyli işlər görülmüşdür. Bakı-Xudat-Rusiya sərhədi avtomobil yolunun yenidən qurulması işləri aparılmışdır. Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası avtomobil yolu yenidən qurulmuş, beton örtüklü yol çəkilmişdir.

İqtisadi rayonun yaşayış məntəqələrinin ***elektrik enerjisi və təbii qaz*** ilə təminatı üçün tədbirlər görülmüş, EVX çəkilmiş, transformatorlar qurulmuş, əhali sayğaclarla təmin edilmişdir. Qaz təminatının yaxşılaşması üçün yerli və magistral kəmərlər çəkilmiş, sayğaclar qurulmuşdur.

***Turizmin*** inkişafı üçün infrastruktur şəbəkəsi yaradılması istiqamətində layihələr yerinə yetirilir, Sahibkarlığa kömək Milli Fondu tərəfindən bu işlərə kreditlər ayrılmışdır. Xaçmaz rayonunda Müqtədir-Vəlvələçay ərazisində turizm potensialı olan ərazilər öyrənilmişdir.

Quba rayonunda müasir tələblərə cavab verən OİK, Cənnət bağı, Quba, Minarə, Aynur, Avand istirahət yerləri vardır. Avand, Aynur,

Qəçrəş istrahət zonaları müasir tələblərə uyğun olaraq qurulur. Bu mərkəzlərdə Bərpa SPA Mərkəzi, 2 nəfərlik 40 otaq, 10 kottec, idman zalları fəaliyyət göstərir. AHU istirahət zonasında hər biri 4 nəfərlik 10 kottec, oyun zalları vardır.

“Aqrolizinq” ASC kənd təsərrüfatı məhsullarının becərilməsi üçün fermerlərin maşın və avadanlıqlarla təmin edimәsinə xidmət göstərir. 2004-cü ildən sonra hər bir inzibati rayonda “Aqrolizinq” ASC-nin filialları yaradılmışdır, onlara maşın və avadanlıq, kənd təsərrüfatı texnikası verilmişdir. Xaçmaz Regional Aqroservis və Təchizat bazası mineral gübrələr, kimyəvi dərman preparatları ilə təmin olunur.

Regionların sosial-iqtisadi inkişafı üzrə ***Dövlət Proqramının*** ikinci mərhələsinin yerinə yetirilməsi (2009-2013) prosesində mühüm nəticələr əldə edilmişdir. Bu zaman Quba-Xaçmaz iqtisadi rayonunda da genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. İqtisadi rayonda meyvəçilik, heyvandarlıq, o cümlədən quşçuluq sahələrində məhsul istehsalının artırılması üçün Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət agentliyinin xətti ilə kreditlər ayrılmışdır.

Dənizsahili ərazilərdə turizmin inkişafı, Quba və Qusar rayonlarında turizmin inkişafı üçün əlverişli yerlər ayrılması, yeni mərkəzləri yaradılması üçün işlər aparılmışdır.

Regionların sosial-iqtisadi inkişafının davam etdirilməsi üçün yeni tədbirlər planı işlənib hazırlanmışdır. Onun növbəti mərhələsi ***2014-2018***-ci illəri əhatə edir. Bu dövrdə nəzərdə tutulan tədbirlərin bir hissəsi Quba-Xaçmaz iqtisadi rayonunu əhatə edir. Ölkə əhəmiyyətli rayonlar arası avtomobil yolları əsaslı təmir edilmiş və yenidən qurulmuşdur. Gəndob-Rusiya Federasiyası yolu və sərhəd-keçid məntəqəsi, çaylar üzərində körpülər yenidən tikilmişdir.

ABOEM-dən istifadə edilməsi və yeni mərkəzlər yaradılması üçün tədbirlər həyata keçirilmişdir. Siyəzəndə 2 MVt gücündə Bioenerji İES tikilməsi nəzərdə tutulur.

Dövlət Neft Fondunun vəsaitləri hesabına Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi həyata keçirilmişdir. Bu zaman Qusar, Qudyal, Caçacuq çaylarında sugötürmə qurğuları yenidən qurulmuşdur.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Quba-Xaçmaz iqtisadi rayonunda təsərrüfatın sahə və ərazi formalaşdırılması və inkişafının təhlilinin aparılması əsasında aşağıdakı nəticə və təkliflər irəli sürülmüşdür :

1. Ölkədə aparılan iqtisadi islahatlar müəssisələrin özəlləşdirilməsinə, fəaliyyətinin bərpa edilməsinə, infrastruktur şəbəkəsinin yenidən qurulmasına imkan vermişdir. Nəticədə təsərrüfatın sahə və ərazi strukturu təkmilləşdirilmiş, yeni iş yerləri açılmış, əhalinin gəlirləri artmış, həyat səviyyəsi yüksəlmişdir. Lakin bununla belə ölkənin iqtisadi potensialının paylanmasında regionların payı hələ də aşağıdır. Ona görə islahatların davam etdirilməsi zəruridir.

2. İqtisadi rayonda iqlim, su və torpaq ehtiyatları əhalinin yerləşməsi, təsərrüfatın səmərəli ərazi təşkili və inkişafı üçün kifayət qədərdir. Düzənliklərin ehtiyatlarından istifadə edilməsi əsasında sahilboyu ərazilərdə əhalinin sıxlığı yüksək həddə çatmışdır, yaşayış məntəqələri ətrafında olan torpaqları tamamilə istifadə edilmişdir. Region üzrə əkin yerlərinin və çoxillik əkmələrin (bağ yerləri) 50% düzənliklərdə (200 m. hündülüyədək ərazilərində), həmçinin 201-500 m. dağətəyi düzən ərazilərdə əkinlərin 30%-ə yaxını, çoxillik əkmələrin isə 37% yaxını yerləşmişdir.

3. Ölkənin təsərrüfat strukturunda iqtisadi rayonun xüsusi çəkisi son illər (2008-2022) 2,5 %-dən 1,7%-dək azalmış olsada, lakin təsərrüfatının ümumi məhsul istehsalında həcminin dəyəri 2,2 dəfə artmış, xüsusilə kənd təsərrüfatının rolu yüksəlmişdir. Bu dövrdə sənaye məhsulu istehsalı 4,4 dəfə artmış, həmin sahənin region üzrə pay gösrəricisinin 2 dəfə artaraq 14%-ə çatmasına səbəb olmuşdur. Regionda davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi üçün sənayenin inkişafı, xüsusilə çox sayda emal müəssisələrinin açılması və ehtiyatlarından səmərəli istifadə edilməsi əsasında yeni təsərrüfat obyektlərinin yaradılması prioritet istiqamət olmalıdır.

4. İqtisadi rayonun sənayesinin ərazi strukturunun təşkilində tədqiqat dövründə sənaye məhsulu istehsalının dəyər göstəricisinin rayonlar arasında xüsusi çəkisinə görə aparıcı yeri Xaçmaz tutmuş, onun payı 1,5 dəfə artaraq 54% -dən çox, emal sənayesində isə pay göstəricisi qismən artaraq 62% olmuşdur. Regionun sənayesinin

sahə strukturunun formalaşmasında həlledici rolu yeyinti sənayesi oynamış, tədqiqat dövründə emal sənayesində məhsulu istehsalının dəyər göstəricisinə görə payı 80%-dən 95%-dək yüksəlmişdir. Beləliklə aydın olur ki, Dövlət proqramlarının həyata keçirilməsində sənayesinin ərazi strukturunun təşkilində Xaçmaz rayonuna və sənayenin sahə struktunda yeyinti sənayesinə daha çox sərmayə qoyulmuşdur. Lakin gələcəkdə təsərrüfat sahələrinin ixtisaslaşması və ərazi təşkili problemlərinin həllində təkmərkəzli (Xaçmaz) və təksahəli (yeyinti) iqtisadiyyatın diversifikasiyasının istiqamətləri əsaslı şəkildə tədqiq olunmalıdır.

5. Regionun kənd təsərrüfatı sahəsinin məhsul istehsalının dəyəri 2008-2022-ci illər ərzində 2,9 dəfə artmış, lakin belə artım ölkə göstəricisindən geri qaldığı üçün ölkə kənd təsərrüfatı strukturunda payı 11,7%-dən 10,2%-dək azalmışdır. Regionun təsərrüfat strukturunda heyvandarlıq və bitkiçiliyin payı göstəriciləri bərabərləşmişdir. Bitkiçiliyin ərazi təşkilində taxıl və tərəvəz əkin yerləri xeyli azalmış, meyvə və giləmeyvə bağ sahələri artmışdır. Bu səbəbdən meyvə və giləmeyvə istehsalı da xeyli artmış, lakin belə artıma uyğun olaraq, bu məhsulları emalı edən müəssisələrin açılmaması böyük problemlər yaratmışdır. Bu sahənin rolunun artırılması üçün tədbirlərin davam etdirilməsi, Dövlət Proqramlarında nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi vacibdir. Regionda heyvandarlıq məhsullarının sürətlə artması, onların emalı üçün yeni obyektlər şəbəkəsi yaradılması mühüm əhəmiyyət kəsb edir.

6. İqtisadi rayonda əhaliyə göstərilən xidmətlərin bir çox növləri aşağı səviyyədədir, əsasən səhiyyə, məişət və pullu xidmətlər zəifdir. Məskunlaşmanın inkişafı, iri məntəqələrin ətraf ərazilərin inkişafında rolunun artırılması üçün onların sosial-mədəni inkişafının təmin edilməsi, əhalinin iş yerləri ilə təminatı, göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tələb olunur.

**Dissertasiyanın mövzusuna uyğun aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

1. Hüseynova, E.H. Quba-Xaçmaz iqtisadi-rayonunda sosial-mədəni xidmət sahələrinin inkişaf problemləri və onların həlli yolları // "Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali

məskunlaşmasının perspektivləri və regional problemlər” mövzusunda elmi-praktiki konfrans, – Bakı, – 2016. – s. 406-414.

2. Hüseynova, E.H. Quba-Xaçmaz iqtisadi rayonunda sənayenin ərazi təşkili problemləri // Bakı: Bakı Univestietinin Xəbərləri, Təbiət elmləri seriyası, – 2016. №2, – s. 144-151.

3. Hüseynova, E.H. Quba-Xaçmaz iqtisadi rayonunda heyvandarlıq sahələrinin inkişafı // Bakı: Bakı Univestietinin Xəbərləri, Təbiət elmləri seriyası, – 2017. №1, – s. 176-185.

4. Hüseynova, E.H. Azərbaycan Respublikasında miqrasiyanın əsas istiqamətləri və nizamlanması problemləri // “Əmək, məşğulluq və sosial müdafiənin aktual məsələləri” mövzusunda beynəlxalq elmi–praktiki konfransı,– Bakı, – 2017. – s. 226-229 (Eminov Z.N., Məmmədov İ.B., Əliyeva L.İ. ilə birlikdə).

5. Гусейнова, Э.Г. Проблемы совершенствования хозяйственной структуры городов и ее значение в демографическом развитии // Материалы международной научно-практической конференции “Модернизация естественнонаучного образования в условиях обновленного содержания”, – Алматы, – 2017. – с. 619-621 (совместно с З.Н. Эминовом, Р.Р. Амановом и Ф.Р.Багировой).

6. Hüseynova, E.H. Quba-Xaçmaz iqtisadi rayonunda əhalinin təsərrüfat sahələrində məşğulluğu // Doktorantların və gənc tədqiqatçıların XXI respublika elmi konfransı, – Bakı, – 2017. – s. 92-93.

7. Hüseynova, E.H. Quba-Xaçmaz iqtisadi rayonunda demoqrafik inkişaf meyilləri və məskunlaşmanın nizamlanması // akad.H.Ə.Əliyevin 110 illiyinə həsr olunmuş “İnsan və ətraf mühit münasibətləri” mövzusunda elmi-praktiki konfransı, – Bakı, – 2017. – s. 475-478 (Amanov R.R. ilə birlikdə).

8. Гусейнова, Э.Г. Особенности территориальной организации хозяйства в горных и предгорных регионах Азербайджанской Республики (на примере Губа-Хачмазкого экономисечкого района) // Геопространственные исследования общественных и природных систем: теория и практика, − Чебоксары: − 2019, − с. 59-65.

9. Guseynova, E.G. Current socio-economic issues and ways of perspective development of the northern regions in the Republic of Azerbaijan (the case of Guba-Khachmaz economic region) // Известия Дагестанского государственного педагогического университета, – Махачкала: – 2022, том 16, №1, – с. 61-69.

10. Hüseynova, E.H. Quba-Xaçmaz iqtisadi rayonunda urbanizasiya prosesləri və demoqrafik inkişaf problemləri // Coğrafiyanın müasir problemləri, Elm və Təhsilin inteqrasiyası, beynəlxalq elmi-praktiki konfransı, – Bakı, – 2022. – s. 154-160 (S.Nağıyev ilə birlikdə)

11. Hüseynova, E.H. Quba-Xaçmaz iqtisadi rayonunda əhalinin məşğulluğunun təmin edilməsi problemləri // Ümummilli lider H.Əliyevin 100 illik yubileyinə həsr olunmuş Coğrafiyanın müasir problemləri, Elm və Təhsilin inteqrasiyası, II beynəlxalq elmi-praktiki konfransı, – Bakı, – 2023. – s. 77-84

12. Гусейнова, Э.Г. Создание регионального кластера социально-экономического развития в Губа-Хачмазском экономическом районе Азербайджана // – Махачкала: Известия Дагестанского государственного педагогического университета, – 2024, Т.8, № 1, – с. 29-39

Dissertasiyanın müdafiəsi 6 dekabr 2024 - cü il tarixində saat 11:00-da AR Elm və Təhsil Nazirliyi BDU nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1148, Bakı ş., Akademik Zahid Xəlilov küçəsi – 33, Bakı Dövlət Universiteti, E-mail: info@bsu.edu.az

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları info@bsu.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 05 noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:28.10.2024
Kağızın formatı: A5
Həcm: 39 585
Tiraj:100